

Əminə YUSİFQIZI,
*Respublikanın əməkdar jurnalisti*

# Qayıdan yurdumuzdan qayıtmayan oğullar

**Sıradan bir kənd uşağı idi Rasim. Bozdağın ətək-lə-rinə sığınmış bir kənd-də dün-yaya göz açmışdı- Ərəbbəs-rədə. Bütün böyük sevgilər beşikdən, doğulduğu yerdən başlayır. Rasim də öncə doğu-lub böyüdüyü evini, kən-dini, sonra da böyük vətənini sevdi.**

Evin ikinci övladı idi. Ailənin ilki olan bacısı çox erkən yaşda vəfat etmişdi. Övlad itkisi valideynlərini çox sarsıtmışdı. Odur ki, Rasim məktəbə getdiyi gün ailəyə böyük sevinc yaşatmışdı. Ərəbbəsrə ümumi orta məktəbini bitir-dikdən sonra təhsilini qonşu Xanabad kəndindəki tam orta məktəbdə davam etdirib. Həqiqi hərbi xidmətə ça-ğırış vərə-qəsini alanda əsgər olacağı üçün çox qürurlanıb. Gedib, bir gənc olaraq borcunu ödəyib və 2008-ci ildə geri, doğmalarının yanına, Ərəbbəsrəyə qayıdıb. Bundan sonra boş dayanmayıb, təsərrüfat işləri ilə məşğul olan atasına kömək edib. Amma kon-kret işinin olmaması onu sıxırdı. Odur ki, günlərin birində müddətdən artıq həqiqi hərbi xidmət qulluq-çusu olmaq yolunu seçir, içində hərbi sahəyə güclü maraq və sevgi vardı.

2014-cü ili həyatı üçün uğurlu tarix sa-nır-dı. Artıq hər-b-çi idi. Mü-ha-ribə vəziyyə-tində olan ölkə-nin və-tən-daşı, torpağı-nın 20 faizi iş-ğal-da olan bir xal-qın oğlu oldu-ğunu bir an belə unutmurdu.

Xidmətinin dördüncü ilində Rasim valideyn-lərini bir xoş xəbərlə sevindirdi. Milli Ordu-muzun yaranması günləri ərəfəsində Müdafiə nazi-rinin əmri ilə xidmətdə fərqləndiyinə görə, "Azər-baycan Ordu-sunun 100 illiyi" yubiley medalı ilə təltif olunmuşdu. Valideynləri Dürdanə və İmran ən böyük arzularına da çatmışdı. Rasim 2016-cı ildə iki il yarımdan artıq nişanlı olduğu sevgilisi Aytən xanımla dünya evinə girmişdi. Cütlüyün Zeynəb adlı qızının həyata gəlməsi ailənin xoşbəxtliyinə yeni rəng qatmışdı. Zeynəbi çox sevirmiş atası, hər evə gələndə qucağından yerə qoy-mur, onunla oynamaqdan zövq alırmış.

...2020-ci il sentyabrın 26-da Rasim doğmala-rının yanında idi. Günün səhər saatlarında əvvəlcədən qərarlaşdırdıqları kimi ailəlikcə Ağdaş rayonundakı ziyarətgahlardan birinə gediblər. Elə bu əsnada ona zəng gəlib, müharibənin başlandığı xəbərini o ziyarət-gahda alır. Atası İmran xatırlayır: "Xidmət etdiyi hərbi hissəyə qayıtdı, qorxmadan, çəkinmədən".

Sen-tyabrın 27-dən başlayaraq hər gün bir dəfə bizimlə telefon vasitəsilə hal-əhval tuturdu - həyat yoldaşı Aytən bildirir: - Yaxşıyam, siz necəsiniz və xüsusi olaraq 3 yaşlı qızımızı soruşurdu, ondan muğa-yat olmağımı xüsusi tapşırırdı. Səsinin tonundan artıq sual verməyə cürət etmirdim. Həm də işi ilə bağlı nə-lə-risə deməyi xoşlamırdı.



Şəhid haqqında yazarkən anası ilə söhbət etmək-dən ağır bir iş ola bilməz. Dürdanə ev xanı-mıdır. İşi-gücü ailəsinin rahatlığı, səliqə-sahmanı, bişi-düşü ilə məşğul olmaqdır. Amma kədərini, qürurunu o qədər gözəl ifadə edir ki, bir el bayatısı ilə...

**Açdım,açdım gül oldum,**
**Boy atdım sünbül oldum.**
**Bir dilbilməz quş idim,**
**Oxudum, bülbül oldum.**

-Oğlum haqqında keçmiş zamanda danış-ıram, çünki o ölməyib, şəhid olub. Ayrılmışıq sadəcə, bizi ağrıdan da bu ayrılıqdır. Kaş ki, belə olmayaydı. Rasim döyüşlərdə olanda, heç kimə bildirmədiyim bir arzum vardı. Qayıdanda ayaqlarına iməkləyib gedə-cəm, addım basdığı torpağı öpəcəm, amma olmadı, balam ayağını torpağa basmadı, çiyin-lərdə gəldi evinə. Oğlum hər dəfə zəng edəndə: "Ana, çala-oyna-ya irəli gedirik, elə o əhvalla da qayıdacağıq, narahat olma", deyirdi. Şükür ki, elə də oldu, şəhid balaları-mızın qisası alındı, torpaqlarımız düşmən tap-dağından xilas edildi. Rasimin istədiyi oldu, tək təsəl-limiz budur. Kəndimizin qəbristanlığında uyuyan oğlu-mun görüşünə getdim, ordumuzun zəfər xəbərini ona dedim, təbrik etdim, deyib göz yaşı tökür ana.

Ailənin digər oğlu, şəhid qardaşının qəhrəman-lığı qürurunu daşıyan Rahimlə də söhbət etdim, deyir ki, Rasim "Ural" hərbi yük maşınında döyüşən əsgər-lərə ağır hərbi sursat daşıyırmış. Güllənin, mərminin yağış kimi yağdığı ərazilərdə bu işi uğurla başa vurmaq böyük cəsarət, diqqət, peşəkarlıq tələb edir - deyir hərbçilər. Yük dolu maşınların keçdiyi ərazilər daim düşmən tərə-fdən izlənilir. Hərbi yük maşınının təyin olunmuş nöq-tələrə vaxtında və qəzasız çatması əsgərin bütün tə-mi-natlarının ödənilməsi deməkdir. Sürücü Rasim Əmrahov həyat-ının hər anını ölüm təh-lü-kəsindən qorxmadan sentyabrın 27-dən oktyabrın 8-dək, döyüşlərin ən qızğın çağ-larında əs-gər-lərimizi təminatsız qoymayıb. Yeni ad gününə 4 gün qalmış Suqovuşanda, Barambad meşəsində başın-dan aldığı qəlpə yarasından həyatını itirib.



1988-ci il oktyabrın 12-də dünyaya gəlişi ilə bir ailəyə, bir nəslə sevinc gətirən Rasim 2020-ci il oktyabrın 8-də uğrunda döyüşdüyü torpaqların tam azad olunduğu günü görmədən, onu tanıyanları və sevənləri üzərək, dünyamıza vida edib.

Bu günlərdə yenə onlara getmişdim. Evdə heç kəsi tapmadığımızdan qayıt-maq istəyəndə yolda İmran kişi ilə rastlaşdıq. Xeyli söhbətləş-dik, gün-güzaranlarından, Ra-sim-siz keçən bir ildən da-nışdıq: "Vallah belə dövlət yox---dur. Mənə də, yoldaşıma da, gəli-nimə də ayrı-ayrılıqda təqaüd təyin edilib. Dövlətimizin başçısından da, yerlər-dəki rəh-bər-likdən, millətimizdən Allah razı olsun, oğluma görə ancaq hörmət-izzət görürük hamıdan. Şəhidin həyat yol-daşı Ay-tənlə söhbət edərkən, nələr çəkdiyini hiss etməmək mümkün deyildi:"Rasim deyirdi ki, qızım Zeynəbi hamı-dan çox istə-yirəm. Deyirdim ki, mən isə səni hər kəsdən çox istəyirəm. Zeynəbin 4 yaşının tamam olmasına az qalıb. Kimsə rəh-mətə gedib, ölüb sözünü eşidəndə əhvalı pis olur, qorxur. Hər şeyi başa düşür, atasını soru-şur. Yal-nız o yuxuya gedən-dən sonra telefonumda Rasimin şəkil-ləri ilə söhbətləşir, göz yaşı tökürəm". Aytən onu da dedi ki, ev növbə-sinə alınıb, yaxınlarda evlə təmin oluna-caq.

Əmrahov Rasim İmran oğlu ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur. Rasimin uğrunda canından keçdiyi Qarabağ Azərbaycandır!